

# Ömrümə yazılan ən xoş gün

**Ulu Öndər Heydər Əliyev yurd-yuvasından didərgin düşmüş qaçqın və məcburi köçkünləri bir an belə unutmur, onların taleyi ilə həmişə maraqlanırdı.**

19 mart 1999-cu il Biləsuvar rayonu ərazisindəki qaçqın qəsəbələrində yaşayan cəbrayıllıların yaxşı yadındadır. Ümummilli Liderimiz həmin gün - Novruz bayramı ərəfəsində buraya gələrək soydaşlarımızın gün-güzəranı, problemləri ilə yaxından tanış oldu, onları milli-mənəvi dəyərlərimizdən biri olan əziz gün - Bahar bayramı münasibəti ilə təbrik etdi. Böyük rəhbər həmin gün 5 saylı çadır şəhərciyində tikilmiş şadlıq evinin açılışında və burada təməli qoyulan 2 gənc ailənin toyunda iştirak edərək onlara xeyir-dua verdi. Toyu olan qaçqın gənclərdən biri də mən idim...

...Artıq baharın qoxusu gəlirdi. Torpaq oyanmağa, nəfəs almağa başlamışdı. Ailəmiz qız evinin razılığı ilə toyumuzu məhz bu ərəfədə, dəqiq desəm, 19 mart 1999-cu il tarixdə etməyi qərarlaşdırmışdı. Bütün tədarük görülmüşdü. Xəbər gəldi ki, Ümummilli Liderimiz, adı Azərbaycanla həmişə qoşa çəkiləcək Heydər Əliyev bizim toyumuzda iştirak edəcəkdir. Altı il keçməsinə baxmayaraq, o vaxt keçirdiyim sevinc hissini sözlə ifadə etməkdə bu gün də çətinlik çəkirəm. Qaçqın həyat tərzi keçməsinə baxmayaraq, buradakı bütün insanlar: qoca da, cavan da, uşaq da sevinirdi. Həmin gün Biləsuvar şəhərindən və ətraf kəndlərdən də böyük rəhbərin ziyarətinə çoxlu sayda adamlar gəlmişdi. Xalqı həmişə özünə arxa-dayaq sayan ümummilli liderimiz bir-bir çadır şəhərciklərini gəzdikdən, insanlarla ətraflı söhbət apardıqdan, onların yaşayışı ilə yaxından tanış olduqdan sonra bizim toyumuza gəldi. Mərasim 5 saylı çadır şəhərciyində həmin gün istifadəyə verilən şadlıq evində idi. Burada bizdən başqa daha iki nəfərin - gənc oğlanla qızın toyu keçirilirdi. Ulu Öndər toy məclisində iştirak edənlərlə səmimi salamlaşdı. Bizi, valideynlərimizi yanına dəvət etdi. Xeyir-dua verərək hər birimizə xoşbəxtlik, səadət arzuladı. Dağlıq Qarabağ probleminin həll edilməsi, torpaqlarımızın geri qaytarılması, dədə-baba yerlərindən perik düşmüş insanların doğma ocaqlarına qaytarılmasının onun fəaliyyətində birinci sırada durduğunu dedi. İnsanları nikbin olmağa səslədi. Hamının Novruz bayramını təbrik etdi. Dedi ki, indiyə kimi mən heç bir toyda oynamamışam. Lakin bu gün bu toyda oynayacağam. Xoş musiqi sədaları altında qol qaldırıb bizimlə oynadı. Valideynlərimizi də ortaya - rəqsə dəvət etdi. Hər iki ailəyə rəngli televizor bağışladı. Sonra birlikdə şəkil çəkdirdi. Həmin şəkilləri ən əziz xatirə kimi ailə albomunda saxlayıram. Həmişə albomu vərəqləyib həmin fotoşəkillərə baxıb qürur hissi keçirirəm, Ümummilli Liderimizi dönə-dönə yad edirəm.

Heydər Əliyev xeyir-duası ilə həyata keçirilən hər bir iş xeyirli olub. Bunu ölkəmizin iqtisadi inkişafı üçün imzaladığı çoxsaylı layihələr aydın şəkildə göstərir. Bunu mənim həyatımda da görmək olar. İki övlad atasıyam. Qızım Zibanın 5, oğlum Rafətin isə 4 yaşı var. Gənc ailə olduğumuz nəzərə alınaraq Biləsuvarda qaçqınlar üçün tikilmiş qəsəbələrin birində 2 otaqlı rahat mənzillə təmin olunmuşuq. Əkib-becərmək üçün bizə 1 hektar torpaq sahəsi də ayrılmışdır. Bundan əlavə, həyətyanı torpağımız da var. Yolumuz, su ilə təminatımız yaxşıdır. Başqa yerlərdən fərqli olaraq, qaçqın qəsəbələrində işıqlar sönmür. Bütün bunlar qaçqın və məcburi köçkünlərə böyük rəhbər Heydər Əliyev tərəfindən göstərilən diqqət və qayğının məntiqi davamıdır. Prezidentimiz cənab İlham Əliyevin inamla, cəsarətlə apardığı siyasət nəticəsində doğma torpaqlarımıza qayıdacağımıza böyük ümid bəsləyirik. Avropa Şurasında, Amerika Konqresində müzakirə olunan məsələlər, cənab Prezidentin xarici ölkə başçıları ilə apardığı çoxsaylı görüşlər, habelə ölkəmizin iqtisadiyyatının durmadan inkişaf etməsi ümidlərimizin doğrulacağına əsas verir. Məsələnin digər yolla həll edilməsinə gəldikdə isə, Qarabağ əlili olmağıma baxmayaraq, günü sabah Ali Baş Komandanın əmri olarsa, silaha sarılıb doğma torpaqlarımızı yağı düşməndən azad etməyə hazıram.

Yurdumuza yenə bahar gəlir. Xoş ətirli, zəhmət qayğılı bahar. Yadıma ömrümə yazılan ən xoş gün - Ulu Öndər Heydər Əliyevin Biləsuvar çadır şəhərciyində yaşayan qaçqınlara baş çəkməsi, toyumuzda iştirak etməsi, xeyir-dua verməsi düşür.

***Azər CAVADOV***

*9 may 2005-ci il*

Azərbaycan. - 2023.- 15 iyun.- S.18.